# Dünya Autizm Məlumatlandırma Günü qeyd olunub

***Əsəb sisteminin inkişafının pozulması nəticəsində yaranan autizmə 3 yaşadək uşaqlarda rast gəlinir.***

***2008-ci ildən başlayaraq hər il aprelin 2-i Dünya Autizm Məlumatlandırma Günü kimi qeyd edilir. Bu barədə BMT Baş Məclisi 2007-ci il dekabrın 18-də qətnamə qəbul edib. Həmin günün qeyd edilməsi xəstəlikdən əziyyət çəkənlərə kömək etmək və onların həyat səviyyəsinin yüksəltmək məqsədi daşıyır. Bütün dünyada olduğu kimi ölkəmizdə də autizm XXI əsrin ən qlobal problemlərindən hesab edilir.***




Dünya Autizm Məlumatlandırma Günü ilə əlaqədar aprelin 2-də Heydər Əliyev Mərkəzində tədbir keçirilib.

Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzinin təşkilatçılığı ilə keçirilən tədbirdə rayon icra hakimiyyəti başçısının müavini Ətayə Osmanova, təhsil şöbəsinin müdiri Arifə Bayramova, Qızıl Aypara Cəmiyyəti rayon təşkilatının sədri Sədaqət Bayramova, "ASAN xidmət" mərkəzinin könüllüləri, autizm sindromlu uşaqlar və valideynlər iştirak ediblər.

Tədbiri açan mərkəzin direktoru Günel Ağayeva autizmlə əlaqədar maarifləndirmə tədbirinin əhəmiyyətindən danışıb.

Mərkəzin psixoloqları autizm sindromlu şəxslərlə davranış qaydaları barədə tədbir iştirakçılarını məlumatlandırıblar.

Tədbirdə uşaqlara maraqlı əyləncəli proqram təqdim olunub, onlara hədiyyələr paylanılıb. Yekunda tədbirdə iştirak edən autizm sindromlu uşaqların valideynləri təşkilatçılara minnətdarlıqlarını bildiriblər.

**İradə RƏSULZADƏ,**
**mərkəzin əməkdaşı.**

# Stolüstü tennis birinciliyi

***4-5 aprel tarixlərində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibətilə məktəblilər arasında stolüstü tennis üzrə rayon birinciliyi yarışları keçirilmişdir.***

Tədbiri giriş sözü ilə Qəbələ Rayon Uşaq-Gənclər İdman-Şahmat məktəbinin direktoru Ədalət Əliyev açaraq ulu öndər Heydər Əliyevin həyat və siyasi fəaliyyəti haqqında iştirakçılara məlumat vermiş, gənc tennisçilərə qələbələr arzulamışdır.

Sonra Azərbaycan Respublikası Təhsil Nazirliyinin nümayəndələri Fərhad İsmayılov, Tahir Qurbanov, rayon təhsil şöbəsi müdirinin müavini Yaşar Nəzirov, Qəbələ şəhər 1 nömrəli tam orta məktəbin direktoru Məhəbbət Rüstəmova və başqaları çıxış edərək idmançılara uğurlar diləmişlər.

Yarışlar idman ustası Kamran Cabbarovun rəhbərliyi ilə 2 yaş qrupunda keçirilmişdir.




Gərgin idman mübarizəsi ilə davam edən birinciliyin qalibləri rayon uşaq-gənclər idman-şahmat məktəbinin diplomları ilə təltif edilmişlər.

Aşağı yaş qrupu üzrə I yeri şəhər 1 nömrəli tam orta məktəbin şagirdi Füzuli Əzməmmədov, II yeri Abrıx kənd tam orta məktəbinin şagirdi Xəzər Aşurov, III yeri şəhər 1 nömrəli tam orta məktəbin şagirdi Əli Nəbiyev, yuxarı yaş qrupu üzrə isə I yeri şəhər 1 nömrəli tam orta məktəbin şagirdi İlkin Budaqov, II yeri Abrıx kənd tam orta məktəbinin şagirdi Fəqan Ağakərimov, III yeri Qəbələ şəhər 1 nömrəli tam orta məktəbin şagirdi Fərid Əzməmmədov tutmuşdur.

**Nərmin RIZVANOVA,**
**məktəbin müəllimi.**

# Özbəkistanın televiziyasında Qəbələ rayonu haqqında videomaterial yayımlanıb

Özbəkistanın "Sevimli" televiziya kanalının "Zamon" proqramı Qəbələ rayonu haqqında videomaterial yayımlayıb.

Videomaterial Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin təşəbbüsü ilə bir qrup özbək jurnalistin Azərbaycana mediaturu çərçivəsində hazırlanıb.

Videomaterialda Qəbələ Arxeoloji Mərkəzi haqqında danışılır, "Tufandağ" Qış-Yay Turizm İstirahət Kompleksi haqqında söhbət açılır. Bildirilir ki, burada hazırda 4 kanat xətti və 10 xizək yolu fəaliyyət göstərir. Kanat xətlərinin ümumi uzunluğu 6 kilometr, xizək yolunun uzunluğu isə 17 kilometrdir. Burada turistlərin istirahətinin mənalı təşkili üçün hər cür şəraiti olan restoranlar və beşulduzlu "Tufandağ" oteli açılıb.

# Ümumdünya Aviasiya və Kosmonavtika Günü

***1961-ci il aprelin 12-də ilk dəfə olaraq Sovet İttifaqı vətəndaşı Yuri Qaqarin orbitə çıxıb. "Vostok" kosmik gəmisi ilə orbitə çıxan kosmonavt 1 saat 48 dəqiqə ərzində Yer kürəsi ətrafında dövr edib və yerə enib.***

Bütün kosmonavtlar uçuşlarını başa vurub yerə enəndə məhz ona məruzə ediblər. Maraqlıdır ki, həmin dövrdə televiziyada kosmonavtın hansısa bir şəxsə məruzə etdiyi nümayiş olunurdu. Lakin kosmonavtın üzü görünsə də, məruzə etdiyi şəxsin televiziyada göstərilməsi qadağan idi. Sonralar məlum oldu ki, həmin şəxs məhz həmyerlimiz Kərim Kərimovdur.



Fərəhli haldır ki, kosmonavtikanın baniləri arasında azərbaycanlı Kərim Kərimovun da adı var. Onun daha çox "R-2" raketlərinin istehsalında xüsusi rolu olub.

1957-ci il oktyabrın 4-də belə raketlərdən birinin köməkliyi ilə dünyada ilk dəfə olaraq yerin süni peyki kosmik fəzaya çıxarılıb və bununla da planetimizdə kosmos dövrü başlanıb. Onu da bildirək ki, Kərim Kərimov uzun illər kosmosa uçuş üzrə dövlət komissiyasının sədri olub.

Azərbaycanda aerokosmik sənayenin yaradılması və bu sahənin inkişafı isə 2008-ci ildə prezident İlham Əliyevin imzaladığı müvafiq sərəncamdan sonra başlayıb. Ölkədə fəaliyyət göstərən aerokosmik agentliyin qarşısında duran başlıca vəzifə ölkənin müdafiə qüdrətinin möhkəmlənməsinə və inkişafına xidmət edən layihələri icra etməkdir.

2010-cu il mayın 3-də Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin nəzdində (indiki Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin) "Azərkosmos" Açıq Səhmdar Cəmiyyəti (ASC) təsis edilib. O, Qafqazda əsas peyk operatorudur. "Azərkosmos" peyk rabitəsi əsasında yayım, genişzolaqlı internet xidmətlərinin göstərilməsi və yüksək, etibarlı rabitənin təmin edilməsi istiqamətində iş aparır.

Ən son texnologiya ilə təchiz edilən "Azərkosmos" yerüstü şəbəkələrin əhatə dairəsinə daxil olmayan peyk əsaslı xidmətlərdən faydalanmaq üçün əhaliyə geniş imkanlar yaradır.

Azərbaycanın ilk milli süni telekommunikasiya peyki "Azerspace-1" 2012-ci il fevralın 8-də orbitə çıxarılıb.

Peykimiz Şərqi Avropa, Şimali Afrika, Mərkəzi Asiya, Qafqaz ölkələri, Yaxın Şərq regionuna yüksək keyfiyyətli yayım xidməti göstərir.

"Azerspace-1" peykinin orbitə buraxılması ilə Naxçıvan MR-in ərazisi də daxil olmaqla Azərbaycanın bütün ərazisində keyfiyyətli televiziya və radio yayımı, o cümlədən sürətli IP xidmətlərin göstərilməsi təmin olunub. Bu gün dünya kosmik sənayesinin bir üzvünə çevrilən Azərbaycanın 3 peyki kosmosdadır. Bu peyklərin xidmətindən onlarla ölkə istifadə edir ki, bu da ölkəmizə hər il milyonlarla dollar gəlir gətirir.

**"Qəbələ"**

# Poliatlon çoxnövçülüyü üzrə rayon birinciliyi

***Gənclər və İdman idarəsinin təşkilatçılığı ilə şəhər 3 nömrəli tam orta məktəbdə yaz çağırışına həsr edilmiş "Vətənin müdafiəsinə hazıram" poliatlon çoxnövçülüyü üzrə rayon birinciliyi keçirilmişdir.***

Beynəlxalq Poliatlon çoxnövçülüyü Assosiasiyasının qaydalarına əsasən 100 metr məsafəyə qaçış, turnikdə dartınma və qumbara atma üzrə keçirilən birincilikdə rayonun tam orta məktəblərindən 27 komanda iştirak etmişdir.



Yarışın keçirilməsində məqsəd yeniyetmə və gəncləri vətənin müdafiəsinə mənəvi və fiziki cəhətdən hazırlamaq, gənclərdə vətənə məhəbbət və vətənpərvərlik hissini artırmaq, çağırış və çağırış yaşınaqədərki gənclərin hərbi hazırlığının gücləndirilməsi, idmançılarda yarış təcrübəsini və ustalığını artırmaqdan ibarətdir.

Tədbirin açılış mərasimində Qəbələ rayon Gənclər və İdman idarəsinin rəisi Fəxri Soltanov respublikamızda idmana göstərilən dövlət qayğısından danışmış, yarışın məqsəd və vəzifələri barədə məlumat verərək idmançılara nailiyyətlər arzulamışdır.

Yarışın nəticəsinə əsasən Əmirvan kənd tam orta məktəbin komandası I, Soltannuxa kənd tam orta məktəbin komandası II və Mıxlıqovaq kənd tam orta məktəbin komandası III yeri tutmuşlar.

Qalib komandalara gənclər və idman idarəsinin diplomları təqdim edilmişdir.

Birinci yeri tutmuş Əmirvan kənd tam orta məktəbin komandası respublika çempionatının zona mərhələsində iştirak etməyə vəsiqə qazanmışdır.

**Elçin OSMANOV,**
**gənclər və İdman idarəsinin aparıcı məsləhətçisi.**